**UOT 336.714**

# AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYESİNƏ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Azad QULİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 2 aprel 2024; çapa qəbul edilmişdir: 14 may 2024; online-da çap edilmişdir: 25 iyun 2024.
Received: 2th of April, 2024; accepted: 14th of May, 2024; published online: 25th of June, 2024.

**Açar sözlər:** *qeyri-neft sənayesi, investisiya, korporativ idarəetmə, rəqabətqabiliyyətlilik, investisiya infrastruktu*

**Giriş**

Hal-hazırda Azərbaycanda qeyri-neft sənayesində mövcud olan şəraitdə nə sənaye müəssisələrinin, nə də ölkə sənayesinin bu sahəsində rəqabətqabiliyyətlilik problemlərinin həllinə nail olmaq mümkün deyildir. Məlum olduğu kimi, təsərrüfat subyektlərinin rəqabətqabiliyyətlilik səviyyəsi onların əsas kapitallarının müasirlik səviyyəsindən, istifadə etdikləri texnologiyadan, insan kapitalının inkişaf səviyyəsindən, həyata keçirdikləri innovasiya fəaliyyətindən və digər mühüm amillərdən asılıdır. Bazar münasibətləri şəraitində qeyri-neft sənaye müəssisələrimizdə bu sadalanan problemlərin həlli əsasən, bu sahəyə investisiya qoyuluşunun həcmindən və ondan istifadə səviyyəsindən asılıdır.

Azərbaycan hökuməti ölkənin neft gəlirlərindən asılılıq səviyyəsini azaltmaq üçün iqtisadiyyatın və ixracın şaxələndirilməsi siyasətini çoxdan bəyan edib. Bunun reallaşdırılması qeyri-neft sahələrinə həm daxili, həm də xarici mənbələrdən böyük həcmlərdə investisiya cəlb edilməsini zəruri edir.

**1. İnvestisiyanın mahiyyəti və iqtisadi əhəmiyyəti**

Görkəmli iqtisadçı alim prof. M.Porter ölkənin iqtisadi inkişafının üç əsas struktur mənbəyini qeyd edir:

- istehsal amilləri;
- investisiyalar;
- innovasiyalar (6).

Geniş mənada investisiyalar dövlətin, hüquqi və fiziki şəxslərin mənfəət əldə etmək və müsbət təsir etmək məqsədilə daşınmaz əmlak, səhmlər, istiqrazlar, qiymətli kağızlar və aktivlər almaq, yeni müəssisələrin yaradılmasına, mövcud müəssisələrin genişləndirilməsinə, yenidən qurulmasına, eyni zamanda texniki cəhətdən yenidən təchiz edilməsinə yönəlmiş vəsaitləri, əmlakı və intellektual sərvətləridir (5, s.152). Aktiv investisiya prosesi bütövlükdə ölkənin iqtisadi potensialını əvvəlcədən müəyyənləşdirir və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə kömək edir. İqtisadi kateqoriya kimi investisiyanın mahiyyəti onun makro və mikro səviyyədə rolunu və əhəmiyyətini əvvəlcədən müəyyən edir:

➢ Makro səviyyədə investisiyalar milli iqtisadiyyatın inkişafı və ictimai istehsalın səmərəliliyinin artırılması üçün əsas kimi çıxış edir: müəssisələrin və qeyri-istehsal

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* aquliyev889@gmail.com

sahələrinin əsas istehsal fondlarının sistemli şəkildə yenilənməsi; elmi-texniki tərəqqinin sürətləndirilməsi, keyfiyyətinin yüksəldilməsi və yerli malların rəqabət qabiliyyətinin təmin edilməsi; milli iqtisadiyyatın bütün sahələrinin tarazlı şəkildə inkişaf etdirilməsi; zəruri xammal bazasının yaradılması; ölkənin iqtisadi potensialının artırılması və dövlətin müdafiə qabiliyyətinin təmin edilməsi; istehsal və paylama xərclərinin azaldılması; ixrac strukturunun artırılması və təkmilləşdirilməsi; sosial problemlərin, o cümlədən işsizlik problemlərinin həlli; iqtisadiyyatda müsbət struktur dəyişikliklərinin təmin edilməsi; mülkiyyətin sahibkarlıq subyektləri arasında yenidən bölüşdürülməsi və s.

İnvestisiyalar son nəticədə iqtisadi artımı müəyyən edir. Ölkənin iqtisadi vəziyyəti bütün təsərrüfat subyektlərinin, yəni kommersiya təşkilatlarının nə qədər səmərəli fəaliyyət göstərdiyindən təsirlənir. İnvestisiyalar və ilk növbədə kapital qoyuluşları şirkətdə bu səmərəliliyin təmin edilməsi üçün əsas kimi çıxış edir (3, s. 12).

➢ Mikro səviyyədə investisiyalar aşağıdakı məqsədlərə nail olmaq üçün zəruridir: istehsal potensialının qurulmasının və rəqabət qabiliyyətinin artırılmasının əsas mənbəyi; fəaliyyət dairəsini artırmaq və genişləndirmək; əsas istehsal fondlarının həddindən artıq mənəvi və fiziki aşınmasının qarşısını almaq; məhsulların istehsalı və satışının maya dəyərini azaltmaq; yeni texnika və texnologiyaların tətbiqi yolu ilə istehsalın texniki səviyyəsini yüksəltmək; məhsulların keyfiyyətinin yüksəldilməsi və rəqabətqabiliyyətliliyinin təmin edilməsi; innovasiya siyasətinin həyata keçirilməsinin təmin edilməsi; təhlükəsizlik tədbirlərini təkmilləşdirmək və ətraf mühitin mühafizəsi tədbirlərini həyata keçirmək; şirkətin rəqabət qabiliyyətini təmin etmək; qiymətli kağızları almaq və digər müəssisələrin aktivlərinə investisiya qoymaq, eyni zamanda nəzarət paketini əldə etmək və s. (7, s. 52).

## 2. Azərbaycanda qeyri-neft sənayesinə investisiya qoyuluşunun təhlili

Məlum məsələdir ki, müasir şəraitdə sənaye müəssisələrinin normal inkişafı bu sahəyə yönəldilən investisiya qoyuluşlarının həcmindən və ondan səmərəli istifadə səviyyəsindən bilavasitə asılıdır. 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard ABŞ dolları təşkil edib. 2002-ci ildə iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2,8 milyard ABŞ dolları idisə, 2022-ci il üzrə bu rəqəm 17,1 milyard ABŞ dolları təşkil edib. 2010-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların məbləği ildən ilə artmışdır.

DSK-nın məlumatları əsasında aparılan hesablamalar göstərir ki, 2010-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən 272,7 milyard AZN məbləğində ümumi investisiyanın 197,6 milyardı (72.5%) əsas kapitala yönəldilib. Bu müddətdə əsas kapitala yönəldilən investisiyanın əsas 3 prioriteti mədənçıxarma sənayesi, nəqliyyat və anbar təsərrüfatı, bir də tikinti sektoru olub.

Onu da qeyd etmək lazımdır ki, qeyd edilən dövrdə ölkə sənayesində əsas kapitala yönəldilmiş investisiyaların çox hissəsi mədənçıxarma sənaye¬sinə yönəl¬dilmişdir. Belə ki, 2022-ci ildə ölkə iqtisadiyyatında əsas kapitala yönə¬ldilmiş investisiyaların 27,9 %-i mədənçıxarma sənayesinin payına düşmüş¬dür. Mədənçıxarma sənayesində əsas kapitala yönəldilmiş investisiyaların 90,7 %-i xam neft və təbii qaz hasilatı və bu sahədə xidmətlərin göstərilməsinə yönəldilmişdir. Ümumilikdə ölkə iqtisadiyyatında əsas kapitala yönəldilmiş investisiyaların cəmi 6,7 %-i emal sənayesinin payına düşmüşdür.

Əsas kapitala yönəldilmiş investisiyaların texnoloji quruluşuna nəzər yetirdikdə məlum olur ki, 1995-ci ildən Azərbaycan iqtisadiyyatında əsas kapitala yönəldilən investisiyaların əksər hissəsi tikinti-quraşdırma işlərinin maliyyələşdirilməsinə yönəldilmişdir. Belə ki, 2022-ci ildə ümumilikdə ölkə iqtisadiyyatında əsas kapitala yönəldilmiş

investisiyaların 73,5 %-i tikinti-quraşdırma işlərinin maliyyələşdirilməsinə yönəldilmişdir.

Nəzəri və praktiki cəhətdən də məlumdur ki, iqtisadiyyata yönəldilmiş investisiyaların texnoloji quruluşunda maşın və avadanlıqların alınmasına yönəldilən investisiyaların həcmi çox olarsa, bu iqtisadi inkişafa daha çox müsbət təsir edər. Belə ki, əsas kapitala yönəldilmiş investisiyaların çox hissəsi digər sahələrə yönəldilirsə bunun rəqabət qabiliyyətliliyinə təsiri çox ola bilməz.

### 3. Qeyri-neft sənayesinə investisiyaların cəlb edilməsi istiqamətləri

Aydındır ki, investisiyaların cəlb edilməsi üçün kapital axınını təmin edən və dəstəkləyən, həmçinin potensial investorların cəlb edilməsi üçün şərait lazımdır. İdeya və investisiya proqramlarının yeni biznesinin yaradılması üçün bütün ilkin şərtlərin mövcud olduğu şərait, investisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan xərcləri minimuma endirməyə imkan verən mühitin mövcudluğu da məcburi amil kimi çıxış edir. İnvestorların hüquqlarının və onların maraqlarının müdafiəsinin təmin edilməsi də zəruridir. İnkişaf etmiş, müasir və dinamik inkişaf edən investisiya infrastrukturu bir çox cəhətdən yuxarıda qeyd olunan bütün vəzifələri yerinə yetirməyə qadirdir. İnfrastrukturun düzgün işləməsi müxtəlif təbii sərvətlərin iqtisadi dövriyyəyə fəal cəlb edilməsi əsasında ölkə iqtisadiyyatının intensiv inkişafına təkan verir, onları iqtisadi cəhətdən daha əlçatan edərək, işçi qüvvəsinin mobilliyini artırır.

Qeyd etdiyimiz kimi, bir ölkədə investisiya mühitinin formalaşması üçün orada investisiya infrastrukturu olmalıdır. Makroiqtisadiyyata görə, investisiya infrastrukturu investisiyaların sabit və səmərəli həyata keçirilməsini və onun bütün iştirakçılarının qarşılıqlı fəaliyyətini təmin edən informasiya, maddi, təşkilati, maliyyə, kredit və digər alətlərin məcmusudur. Bütün bunlar investisiya münasibətlərinin təkmilləşdirilməsi üçün ilkin şərtləri təşkil edir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən məlum olur ki, müasir şəraitdə istər ölkə iqtisadiyyatında, istərsə də onun ayrı-ayrı sahələrində investisiya fəaliyyətinin stimullaşdırılmasında korporativ idarəetmənin rolu çox böyükdür. Tətbiq edilən mükəmməl korporativ idarəetmə şəffaflığı təmin edir və fəaliyyətin səmərəliliyini artırır. Bu da istər daxili, istərsə də xarici investorları bu sahəyə cəlb edir (8, s.152).

Hesab edirik ki, bu baxımdanda da Azərbaycanda qeyri-neft sənayesinə investisiyaların cəlb edilməsinin vacib istiqamətlərindən biri də, bu sahədə korporativ idarəetmənin inkişafına nail olmaqdır. Aparılmış araşdırmalardan məlum olur ki, Azərbaycanda korporativ idarəetmə sahəsində çox ciddi problemlər vardır. Bəlli məsələdir ki, müvafiq bazar infrastruktur sahələri (fond birjaları və s.) olmadan korporativ idarəetmənin inkişafına nail olmaq mümkün deyildir. Məlumat üçün qeyd edək ki, ölkəmizdə cəmi bir fond birjası (Bakı Fond birjası) var və həmin birjada əsasən kommersiya banklarının və dövlətin qiymətli kağızlarının alqı-satqısını həyata keçirir. Bu baxımdan da hökumət ölkədə fond birjalarının səmərəli fəaliyyətinə nail olmaq üçün mühüm tədbirlər həyata keçirməlidir.

Bu qeyd edilən problemlə yanaşı ölkəmizdə korporativ idarəetmənin təkmilləşdirilmiş və dünya standartlarına uyğun qanunvericilik bazasıda yoxdur. Belə ki, hal-hazırda Azərbaycanda bu sahədə mövcud olan qanunvericilik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tövsiyələrinə uyğun deyildir. Hesab edirik ki, respublikamızda inkişaf etmiş ölkələrdə olduğu kimi, korporativ münasibətləri tənzimləyə biləcək “Korporativ davranış məcəlləsi”nin hazırlanmasına böyük zərurət var.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsindən məlum olur ki, ümumilikdə ölkə iqtisadiyyatına və onun ayrı-ayrı sahələrinə investisiya resurslarının cəlb edilməsində dövlət tərəfindən yaradılan investisiya təşviqi inistitutlarının rolu çox böyükdür. Məlum

olduğu kimi, ölkəmizdə qeyri-neft sənayesinə investisiya axınını təmin etmək məqsədilə dövlət investisiya təşviqi inistitutları formalaşdırılıb. Lakin bu təsisatların fəaliyyəti nəticəsində respublikamızda qeyri-neft sənayesi sahələrinə yönəldilən investisiyaların həcmində kəskin artım olmamışdır. Bu baxımdan da hesab edirik ki, Azərbaycanda fəaliyyət göstərən dövlət investisiya təşviqi institutlarının fəaliyyətlərini təkmilləşdirərək müasir dövrün tələblərinə uyğulaşdırıb, daha sonra isə fəaliyyətlərinin genişləndirilməsinə ehtiyac vardır. Bunun üçün ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- Bu sahədə inkişaf etmiş ölkələrin çoxillik təcrübələri öyrənməli, bu təcrübələr əsasında yerli qrumların fəaliyyətindəki çatışmazlıqlar aradan qaldırılmalıdır;
- Bu qrumların vasitəsilə təsərrüfat subyektlərinə verilən investisiyaların Azərbaycan iqisadiyyatına verdiyi töhvələri qiymətləndirmək üçün xüsusi göstəricilər sistemi hazırlanmalı və həmin göstəricilər əsasında qiymətləndirmələr aparılmalı və cəmiyyətə təqdim edilməlidir;
- Əsas problemlərdən biri budur ki, bu qrumların yetərli büdcələrə malik olmadıqları üçün məhdud sayda layihələrin maliyyələşməsində iştirak edirlər. Bunu nəzə alaraq bu qurumlara dövlət büdcəsindən ayrılan vəsaitin həcminin artırılması məqsədəuyğundur.

Məlum olduğu kimi, təsərrüfat subyektlərinin investisiya fəliyyətinin maliyyələşməsində bank kreditlərinin rolu böyükdür. Lakin respublikamızda bu sahədə bankların rolu qənaətbəxş səviyyədə deyildir. Bunu nəzərə alaraq, sənaye müəssisələrinin fəaliyyətinin maliyyələşməsində bankların rolunu artırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədə uyğun hesab edirik:

- *Bank sahəsində rəqabət mühitinin yaradılması:* Belə ki, bank sektorunda rəqabət mühiti yaradılarsa bu zaman kommersiya bankları arasında gedən rəqabət nəticəsində kredit faiz dərəcələri əhəmiyyətli dərəcədə azala bilər. Bu da faiz dərəcələrinin aşağı düşməsi ilə yanaşı verilən kreditlərin həcminin və kreditlərin müddətinin artırılmasına şərait yarada bilər. Bütün bunlar isə təsərrüfat subyektlərinin bank kreditlərinə əlçatanlıq səviyyəsinin yaxşılaşmasına gətirib çıxarar;

- *Sənaye müəssisələrinin maliyyələşməsində bankların rolunun artırılması istiqamətlərindən biri də müəssisə sahiblərinin kredit götürdükləri zaman alternativ təminatların və zəmanətləri təmin etməsi üçün uyğun mexanizmlərin işlənilməsi və icra edilməsidir:* Burada məqsəd xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da müəssisə sahiblərinin kredit vəsaitlərindən istifadə imkanlarının yaxşılaşdırılması üçün bankların kredit risklərinin aşağı salınması məqsədilə biznes assosiasiyaların və kredit sığortası kimi mexanizmlərin tətbiq edilməsidir.

-*Maarifləndirmə kampaniyalarının həyata keçirilməsi:* Belə ki, iş adamları üçün təqdim edilən kredit paketləri və digər kredit güzəştləri haqqında sahibkarları KİV-lər və digər yollarla maarifləndirməlidirlər.

Yuxarıda da qeyd etdiyimiz kimi, bank kreditlərinin verilməsi sahəsində mövcud olan problemlərdən biri də təminat problemidir. Bu problemin həll edilməsi və sahibkarlar üçün kredit vəsaitlərinin verilməsi qarşılığında əsas təminatlarından biri dövlət orqanları, eləcə də yerli hakimiyyət orqanları olmalıdır. Girovun hüquq sisteminin və qanunvericilik konsolidasiyasının inkişafı bank və sahibkarlıq subyektləri arasında əlaqələrin gücləndirilməsində mühüm rol oynaya bilər.

Bunlardan başqa sahibkarlığı dəstəkləyən xüsusi maliyyə qurumları yaratmaq məqsədə uyğundur. Xarici ölkələrin təcrübəsində sahibkarlıq subyektlərinə dəstək verən qurumlardan biri risklərin bir hissəsini öz üzərinə götürən müəssisələrin qarşılıqlı təminat cəmiyyətləri və könüllü kredit kooperativləridir. Qarşılıqlı təminat cəmiyyətlərinin üstünlüyü kreditin təhlükəsizlik bazasının genişləndirilməsidir. Belə ki, bank

yalnız şirkətin aktivlərini deyil, həm də şirkətin vəsaitlərini nəzərə alır.

Bir qayda olaraq, adı çəkilən qurumdan kredit almaq üçün heç bir girov tələb olunmur və faiz dərəcəsi yalnız minimum ödənişi əhatə edir. Təbii ki, bu kreditlərdən yalnız qurumun üzvləri istifadə edə bilərlər. Bu kreditin alternativi kommersiya banklarında da sərfəli ola bilər, çünki bu kiçik biznesin "kölgə" dən çıxmasına imkan verəcək ki, bu da ölkə iqtisadiyyatının canlanmasına, onun artımına və investisiya cəlbediciliyinə səbəb olacaqdır.

Xarici ölkələrin təcrübələrində sahibkarlıq fəaliyyətinin maliyyələşməsində daha çox istifadə edilən maliyyə mexanizmlərindən biri də, qiymətli kağızlar (kapital) bazarıdır. QKB-nın inkişaf etdirilməsi nəinki sahibkarların maliyyələşməsi üçün lazımlı resursların cəlb edilməsinə, eyni zamanda təsərrüfat əməliyyatlarının səmərəliliyinin artırılmasına və meydana çıxan risklərin azaldılmasına imkan yaradır.

Məlum məsələdir ki, hal-hazırkı şəraitdə ölkəmizdə qeyri-neft sənayesinə investisiyaların cəlb edilməsi yuxarıda qeyd edilənləri özündə əks etdirən dövlətin mükəmməl investisiya siyasətindən asılıdır. Müasir şəraitdə sənaye müəssisələrinin səmərəli inkişafı istehsalın aşağı təşkilati-texniki səviyyəsi, yüksək xərclər və kifayət qədər maliyyə resurslarının olmaması ilə çətinləşir ki, bu da investisiya vəsaitlərinin cəlb edilməsini zəruri edir. Son illər ölkənin qeyri-neft sənayesində investisiya fəaliyyətində müəyyən müsbət meyillərin olmasına baxmayaraq, investisiyaların səmərəliliyi aşağı olaraq qalır. Qeyri-neft sənayesində müəssisələrinin sabitliyi və səmərəliliyi hökumətin rellaşdırdığı investisiya siyasətinin nə dərəcədə rasional formalaşdırılmasından asılıdır. İnvestisiyaya dövlət dəstəyi siyasətinin əsas vəzifəsi investisiya fəaliyyətinin inkişafı üçün əlverişli iqtisadi şərait yaratmaqdır. İnvestisiya mühitinin cəlbediciliyi, ilk növbədə, dövlətin vergi, amortizasiya, maliyyə və kredit siyasətinin şərtləri ilə müəyyən edilir. Eyni zamanda, potensial investorlar üçün təkcə konkret anda mövcud olan şərtlər deyil, həm də onların inkişafı üçün gözlənilən perspektivlər, ölkədəki siyasi və iqtisadi vəziyyətin sabitlik dərəcəsi və digər amillər vacibdir.

Hal-hazırkı şəraitdə səmərəli investisiya siyasəti aşağıda qeyd edilmiş 4 əsas prinsipin inkişafına əsaslanmalıdır:

✓ Ölkə ərazisində investisiya fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi;

✓ İnvestisiya siyasətinin investisiya proqramlarının strateji istiqamətləri üzrə cəmləşməsi;

✓ Sənaye müəssisələrinin öz maliyyə vəsaitləri hesabına özlərinin inkişafına investisiya qoymaq üzrə fəaliyyətinin sürətləndirilməsi;

✓ İnkişafın müsbət və mənfi tərəflərinin davamlı monitorinqinin həyata keçirilməsi.

**Nəticə**

Fikrimizcə, respublikamızda qeyri-neft sənayesinə investisiyaların cəlb edilməsi məqsədilə hökumətin reallaşdırdığı investisiya siyasətinin təkmilləşdirilməsinə ehtiyac vardır. Ölkəmizdə investisiya siyasətini təkmilləşdirmə prosesində qeyd edilənlər arasında nəzərə alınması daha məqsədəuyğun olardı:

➢ qeyri-neft sektoruna investisiya qoyuluşlarına dövlət təminatının verilməsi qaydalarının hüquqi bazasının təkmilləşdirilməsi;

➢ ölkədə investisiya zəmanət fondunun yaradılması;

➢ investisiya siyasətini təkmilləşdirərkən onun prioritetləri kimi aşağıdakı istiqamətlər əsas götürülməlidir:

- yüksək əlavə dəyərə malik ixracyönümlü qeyri-neft sənayesi sahələrinin inkişafı;
- yeni texnologiyaların, texnikanın və nou-haunun tətbiqinin intensivləşdirilməsi;

- müasir idarəetmə təcrübələrinin və korporativ idarəetmənin yayılması;
- strateji infrastrukturun inkişafı (nəqliyyat, informasiya, rabitə və enerji);
- yerli qeyri-neft sənayesi istehsalçılarına dövlət dəstəyi və təşviqi;
- qeyri-neft sənayesi müəssisə və təşkilatların innovasiya fəallığının artırılması;
- texnologiya tutumlu qeyri-neft sənaye sahələrinin inkişafı;
- insan resurslarının və elmi potensialın inkişafı.

## ƏDƏBİYYAT


1. Azərbaycan sənayesi. Rəsmi nəşr // Statistik məcmuə. Bakı: ARDSK, 2023, 217 s.
2. Azərbaycanda tikinti. Rəsmi nəşr // Statistik məcmuə. Bakı: ARDSK, 2023, 249 s.
3. Аньшин В. М. Инвестиционный анализ: учебное пособие. Москва: Дело, 2019, 280 с.
4. Кондратьев В. Б. Корпоративное управление и инвестиционный процесс. Институт мировой экономики и международных отношений РАН. Москва: Наука, 2003, 318 с.
5. Кучарина Е. А. Инвестиционный анализ. С-Пб.: Питер, 2007, 160 с.
6. Портер М. Международная конкуренция. Москва: Международные отношения, 1993, 896 с.
7. Ясиновская О.А. Инвестиции в настоящее: власть и бизнес в режиме диалога. Н. Новгород: Изд-во Волго-Вят. акад. гос. службы, 2018, 219 с.
8. Heinrich R.P. Complementarities in corporate governance. Berlin: Springer, 2002, XVI, 234 p.


### *Резюме*

***Азад Гулиев***

***Направления привлечения инвестиций в ненефтяную промышленность Азербайджана***


Статья посвящена исследованию направлений привлечения инвестиций в ненефтяную промышленность Азербайджана. В настоящее время в нынешних условиях ненефтяной промышленности Азербайджана не представляется возможным решить проблемы конкурентоспособности ни промышленных предприятий, ни промышленности страны в этой сфере. Как было отмечено, уровень конкурентоспособности хозяйствующих субъектов зависит от уровня современности их основного капитала, использованной технологии, уровня развития человеческого капитала, инновационной активности и других важных факторов. В условиях рыночных отношений решение перечисленных проблем на наших предприятиях ненефтяной промышленности во многом зависит от объема инвестиций в эту сферу и уровня их использования.

Правительство Азербайджана уже давно декларирует политику диверсификации экономики и экспорта с целью снижения зависимости страны от нефтяных доходов. Реализация этого требует привлечения больших объемов инвестиций в ненефтяые отрасли как из внутренних, так и из внешних источников.

Следует учитывать, что физический и моральный износ большинства основных капиталов промышленных предприятий, работающих в ненефтяной отрасли Азербайджана, а также снижение экономической устойчивости основных капиталов оказывают негативное влияние на их конкурентоспособное производство и предложение товаров на внутреннем и внешнем рынках. В связи с этим предприятия, работающие в ненефтяном секторе, нуждаются в постоянном обновлении производственных фондов. Все это требует увеличения инвестиций в ненефтяные отрасли.

Основная цель исследования – теоретически рассмотреть пути привлечения как отечественных, так и иностранных инвестиций в ненефтяную отрасль нашей республики в современных условиях и подготовить научно обоснованные предложения и рекомендации в этой сфере. В статье была проанализирована и оценена отраслевая структура инвестиций, направленных в азербайджанскую промышленность, с использованием официальных статистических данных, наряду с этим исследованы направления привлечения инвестиций в ненефтяную промышленность в нынешних условиях.

**Ключевые слова:** *Ненефтяная промышленность, инвестиции, корпоративное управление, конкурентоспособность, инвестиционная инфраструктура*

***Summary***

***Azad Guliyev***

***Directions for Attracting İnvestments to the Non-Oil İndustry in Azerbaijan***

The article is devoted to researching the directions of attracting investments to the non-oil industry in Azerbaijan. Currently, in the conditions of the non-oil industry in Azerbaijan, it is not possible to solve the competitiveness problems of industrial enterprises or the country's industry in this field. As mentioned, the level of competitiveness of business entities depends on the level of modernity of their fixed capital, the technology used, the level of development of human capital, innovation activity and other important factors. In the conditions of market relations, the solution to the listed problems at our non-oil industry enterprises largely depends on the volume of investments in this area and the level of their use.

The government of Azerbaijan has long declared the policy of diversifying the economy and exports in order to reduce the country's dependence on oil revenues. Realization of this requires attracting large amounts of investment from both domestic and foreign sources to non-oil fields.

It should be taken into account that the physical and moral wear and tear of most of the main capitals of the industrial enterprises operating in the non-oil industry in Azerbaijan, and the decrease in the economic stability of the main capitals have a negative impact on their competitive production and offering of goods in the domestic and foreign markets. In this regard, enterprises operating in the non-oil sector need continuous renewal of production funds. All this requires increasing investments in non-oil industries.

The main purpose of the research is to theoretically examine the ways of attracting both domestic and foreign investments to the non-oil industry in our republic under modern conditions and prepare scientifically based proposals and recommendations in this field. In the article, the field structure of investments directed to the Azerbaijani industry was analyzed and evaluated using official statistical figures, along with these, the directions of attracting investments to the non-oil industry in the current conditions were investigated.

**Key words:** *Non-oil industry, investment, corporate management, competitiveness, investment infrastructure*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.